# AZƏRBAYCAN RESPUBLİKASI SƏHİYYƏ NAZİRLİYİ

## ƏMR

**№50** **11.05.2011-ci il**

**Bakı şəhəri**

**“Sürücülərin tibbi müayinəsinin təkmilləşdirilməsi haqqında”**

Respublikanın şəhər və rayonlarının tibb müəssisələrində sürücülərin tibbi müayinələrin aparılması üçün müvafiq şəraitin olmasını, eləcə də mövcud olan rayonlararası komissiyaların yerləşdiyi tibb müəssisələrinə gediş-gəlişin əlavə çətinlik yaratmasını nəzərə alaraq

**ƏMR EDİRƏM:**

1. Səhiyyə Nazirliyinin tabeliyində olan tibb idarə və müəssisələrin rəhbərlərinə tapşırılsın:

1.1. sürücülərin tibbi müayinəsinin ərazi poliklinikaları (poliklinika şöbələri) tərəfindən həyata keçirilməsi təmin edilsin;

1.2. müayinələri keçirən tibb müəssisələri Səhiyyə Nazirliyinin 09.10.2002-ci il tarixli 137 nömrəli əmri ilə təsdiq edilmiş 083 nömrəli forma-blanklarla təmin edilsin.

2. “Bakı şəhər Sürücülərin Tibbi Müayinə Mərkəzi” “Bakı şəhər təsərrüfat hesablı poliklinikası”na çevrilsin.

3. Bakı şəhər Baş Səhiyyə İdarəsinin rəisi L.Seyidbəyovaya tapşırılsın ki, bu əmrin 2-ci bəndindən irəli gələn məsələlər həll edilsin.

4. Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin “Sürücülərin tibbi müayinə xidmətinin təkmilləşdirilməsi haqqında” 13.12.1999-cu il tarixli 154 nömrəli əmri qüvvədən düşmüş hesab edilsin.

5. Əmrin icrasına nəzarət Nazir müavini Nigar Əliyevaya həvalə edilsin.

**Oqtay Şirəliyev**